Aqşin AĞKƏMƏRLİ

Gecə yarıdan keçmiş hər yeri qaranlıq zülmət almışdı. Səmada nə bir işıq, nə bulud, nə də əsən külək vardı. Çiskin duman bürümüşdü dağı, daşı... Dərə, təpə, hətta gəlib-gedən belə görünmürdü. O tutqun, boğanaq havada qəfildən it hürməyə başladı və dayanmadan hürürdü. Arabir həzin inilti səsi də çıxarırdı. Köpəkdə olan bu qəribəliyi eşidənlər yuxudan oyanıb təəccüblə dinlə-yirdilər. İtin boynundakı xaltanı açıb həyətə buraxdıq. İt, Təbrizin otağının önündə, pəncərəsinin altında durub hürməyə başladı, sanki onu çağırırdı... Köpəkdə elə bil qurd ruhu oyanmışdı. Başını dik göyə tutub ulayırdı, hava da getdikcə işıqlanırdı. Günəş çınarın yarpaqları arasından tədricən aralanaraq səmaya göz açır, təbiət nura qərq olurdu. İçimdə bir boşluq,sükunət qəlbimi sıxdı. Nədənsə məni qəhər boğdu,elə bil bu anlarda höndürəcəkdim. Tutqun halımı kimsə görməsin deyə evdən çıxıb yola düzəldim. Köpək başımı iki əllərinin arasına alıb dinməzcə Təbrizin pəncərəsinin önündə yatmışdı...

Günlər keçdi, köpək heç səs çıxarmadan elə oradaca qalmışdı. Heyvanın gözləri qan çanağına dönmüşdü. Axan yaş üzündə iki iz buraxmışdı. Köpəyin bu görkəmini hərə qəlbində müxtəlif cür yozurdu, ancaq kimsə cəsarət edib dilə gətirə bilmirdi.

Təşviş, stress içində hər səhər-axşam bütün xəbərləri izləyirdik. Günorta radio xəbərlərində dedilər ki, şuşa bölgəsində gecə saat 00-dan başlanan atışmalar hələ də davam edir. Bu xəbəri dinlədikdən sonra nəfəsimiz içimizdə, səsimiz ürəyimizdə boğuldu, sorğusualımız baxışlarımızda dondu, heç kəs digərinə bir söz deyə bilmədi. Bu ağır günləri elə ağır-ağır da yaşadıq.

Bir gün qəzet başlıqlarında oxudum: "Ermənı işğalçıları ağır itki verməklə torpaqlarımızdan geri çəkildilər. Bu döyüşdə ordumuzun bir neçə əsgər və zabiti də qəhrəmancasına vuruşub, şəhidlik zirvəsinə ucaldılar. O şəhidlərin içində Təbrizin də adı vardı. Azərbaycanımın Qüzeyində Güneyi üçün illərlə çox həsrət çəkmişdim. Odur ki, Güneyimizin baş kəndi olan çox sevdiyim Təbrizin adını qəhrəman övladıma verib təsəlli tapmışdım. Lakin övlad Təbrizim Vətənimizin ərazibütövlüyü uğrunda yağı düşmənə qarşı mərdliklə döyüşərək əbədiyyətə qovuşmuşdu...

Şəhidimizi torpağa tapşırdıq, mərasimlər qurtardı, ailəmizdə,qohum-qonşuda hər kəs onun üçün darıxanda, sıxılanda məzarını ziyarətə gedirdi. Bir neçə dəfə köpəyi Təbrizin məzarı başında gördük. Ona su, yemək qoyduq, ancaq o heç dilini də nə suya, nə yeməyə vurmurdu. Bir müddət də beləcə keçdi,köpək birdəfəlik ortalıqdan yox oldu, daha kimsə onu görmədi.

Və beləcə günlər keçdi.Bir gün hərbi komissarlıqdan məni çağırıb, bəzi sənədlərə qol çəkməkdirib Təbrizin bir neçə şəxsi əşyaları-nı verdilər. Bu əşyaların hər birindən Təbrizimin övlad ətrini duyurdum. Aldığım əşyaların arasında yalnız mənə qəribə gələn ünvanı yazılmamış bir məktub diqqətimi cəlb etdi.Zərfin içində məktub və bir qızın foto-şəkli vardı, arxasında kiçik bir şeir yazılmışdı:

Bir daha mən sənə "getmə" deməram
Bilirəm,gedəcəksən!
"Qal" desəm də, qalmayacaqsan
Bilirəm,gedəcəksən!
Qorxuram sənsizlikdən-
Desəm də məni də al apar buralardan!
Desəm də götürüb aparmağacaqsan
Bilirəm, gedəcəksən.
Daha sənə "getmə" demiyəcəyəm-
Həyatımın budur xoşbəxt anları,
Al götür canımı!İndi canım səndədir.
Demə mən, cansız neyləyəcəyəm.
Səni, içimdə yaşadıb oxşayacağam.
Kimsəyə heç nə deməyəcəyəm.
Səni qəlbimlə sevəcəyəm.
Üşüsəm də, donsam da belə-
Qorxudan tir-tir əssəm belə,
Məni al qollarına nə olur,
Məni ovundur deməyəcəyəm.
Bir daha sənə
"getmə, getmə, getmə" - deməyəcəyəm...

Sonra məktubu açıb oxudum:

- "Sevgilim Tomris!

...Mən istərdim gələcəkdə Bakıya həmişəlik köçüb gələsən,burada birlikdə yuva qurub yaşayaq, uşaqlarımız da burada öz ana dilində təhsil alıb oxusunlar. İstərdim üç övladımız olsun: birincisinin adı Azər, ikincisinin adı Bay, üçüncüsünün adı Can olsun. Qoy, onlar gələcək birliyimizin, bütövlüyümüzün, Vətəni sevdiyimiz qədər əbədi sevgimizin rəmzi mənaları olsunlar."

Şəkildəki qızı bütün qohum-əqrəbada,qonşuda,məhəllədə çox axtardım, tapa bilmədim, kimsə onu tanımadı.

Beləliklə, aylar, illər ötdü, ancaq zərfin içində olan şəkli cibimdə gəzdirirdim.Bir fikir məni rahat buraxmırdı:"Axı bu qız harada yaşayırdı ki, Təbriz onun Bakıya köçüb gəlməsini istəyirdi?Amma Təbrizin " uşaqlarımız da burada öz ana dilində təhsil alıb oxusunlar" cümləsi məndə bir yəqinlik yaratmışdı ki,bu qız respublikamızda yaşamır,hansısa xarici ölkədədir, bəlkə nə zamansa günlərin birində Allahın qisməti ilə onu görüb, məktubu verəcəyəm və onunla yaxından tanış olub Təbrizi ondan soruşacağam.

Xülasə,o gündən 7 il keçsə də mən hələ də ümidimi itirmədən gözüm qızı hər yerdə gəzirdi.Və nədənsə daxili bir hiss mənə mandırırdı ki, bu ünvansız məktubu haçansa tapıb ünvanına çatdıracağam.

Bir gün çalışdığım şirkət tərəfindən işlə əlaqədar bir neçə günlük Bakıdan Cənubi Azərbaycanın Zəngan şəhərinə getdim. Ordakı qohumları gördüm, bir neçə gün onlarda qonaq qaldım. Təbizimlə Zənganda qonaq olduğum günləri xatırladım, onunla gəzdiyim yerləri təkrar gəzdim. Zənganın Cümə məscidi, Əjdaha məbədi, möhtəşəm Sultaniyə kompleksi, Şəhər darvazası, Örtülü bazarını gəzib dolandım. Sonradan Karvansara restoranında oturub Təbrizlə nahar edib, şəkil çəkdiyimiz günü də xatırladım. Bir də Bakıya qayıdan günün Səhərini Təbrizin qəfildən ortalıqdan yox olmasını və günortaya qədər məni intizarda qoyduğu saatları xatırladım. Həmin gün o mənə heç nə demədən bir neçə saatlıq yox olması nigarançılıqdan hövsələmi tarıma çəkmişdi.Ona görə də Təbriz qayıdan kimi onunla çox sərt danışdım. Və buna baxmayaraq, bu gün içimdə bir peşmanlıq hissi keçirsəm də o günü heç unuda bilmirəm.

Artıq şirkətlə əlaqəli işlərim Zənganda bitmək üzrə idi. Bir gün işdən tez çıxıb, yol üstü bazardan bəzi sifarişləri almaq üçün Zəngan bazarına getdim. Bazarın girişində insan qaynayırdı, bazara girən kim, çıxan kim. Bu izdihamda iynə atsaydın yerə düşməzdi. Səyyar satıcıların səsindən də ağız deyəni qulaq eşitmirdi. Birtəhər yol alıb, bazarın içərisinə girdim, bir az qabaqdan bir- iki dükandan bəzi şeylər almışdım ki, bir də gördüm qucağında bir , yanında da daha iki azyaşlı uşağı ilə gənc qadın önümdən keçdi. Bu an yerimdə dönüb qaldım, bu qadın mənə necə də tanış gəlirdi,ilahi... Bir anlığa düşündüm və birdən şəkildəki sima gözümün önündə canlandı. "Bu odur,özüdür !"- deyib sannki içdən bağırdım. Bəli, o şəkildəki Tomris adlı qızı idi. Nə yaxşı ki, onu tapdım. Amma ona necə yaxınlaşacağımı düşünərkən bir azca fikrə getdim,tez özümə gəlib onun ardınca düşdüm.Gənc qadın qucağındakı uşağı da yerə qoyub bir az dikəldi.Deyəsən yorulmuşdu.Dərindən nəfəs alıb böyük oğluna yanındakı uşağı göstərib səsləndi:

- "Ay Azər bala, Bəyin ölndən tutsana! Görürsən ki,qardaşın sakit dayanmır,bazarın içində onu itirə bilərik." Bu sözləri eşitcək elə bil içimdə tufan qopdu,daha dayana bilmədim. Uşaqların adlarını eşitcək qəhər məni boğdu, gözlərim yaşardı, köhnəlməyən dərdim yenidən təzələndi... Daha dayana bilmədim,səbrim tükənmişdi. Əmin idim ki, bu Tomrisin özüdür! Ətrafdakıların bir az seyrəkləşdiyini görüb astaca səslədim: "Tomris! Tomris!"

Qadın adını eşitcək bir andaca dayandı,məni görcək yerində heykəl kimi donub qaldı.O da məni tanımışdı deyəsən.Bu an əli boşalıb yanına düşdü,qara çadrası başından sürüşdü. Sanki günəş qara buludlar arxasından üzə çıxdı, əsmər üzü, qara gözləri, uzun dalğalı xınalı hörükləri,heyrətdən kamantək dartılan qaşları açıq-aydın göründü. Abu kimi ürkək baxışlı dağlar gözəli qara çadırının qaranlığından üzə çıxdı...Və birdən nəyi isə xatırlayıb o solğun baxışları canlandı,qara gözlərində ildırım çaxıb işıq saçdı sanki,gözləri dolub-boşaldı həsrətdən. "Bu sizsinizmi,Təbrizin atası?" -deyib ikiəlli üzünü tutub hönkürdü. Qadın bu durumu ilə uşaqlarını da, ətrafdakı adamları da heyrətə salmışdı.Uşağın ən kiçiyi anasının çadrasından yapışıb qönçə dodaqlarını büzmüşdü,o da sanki ağlayacaqdı. Hər kəs Tomrisə təəccüblə baxıb keçirdi, o isə heç kəsə məhəl qoymadan mənə: "Atacan, bu sizsinizmi?"- deyib məni qucaqladı. Qara gözlərində buludlar silkələndi, başını sinəmə qoyub hönkür-hönkür ağladı.Sakitləşmək bilmirdi, kəman kimi inləyir, ney təki sızlayırdı, əlinin arxası ilə göz yaşlarını silib, tutqun bir səslə mənə: "Ata, atacan, Təbriz, Təbriz, məndə /yox oldu, məndə öyündü, məndə can tapdı." Yenə ağladı.Amma bu dəfə için-için səssiz ağlayırdı.Mən onu sakitləşdirmək üçün: "Yaxşı bəsdir,özünü elə al,səbirli ol,qızım. Ağlayıb uşaqları da,məni də üzürsən.Təbrizin də ruhu narahat olur"-dedim.

Hiss etdim ki,bu sözlərimdən sonra o bir qədər sakitləşdi və:-" Ata, ata, can, mən sizi şəkillərinizdən tanıyıram. Təbriz mənə göndərmişdi. "Nəmli gözlərini çiyinlərinə sürüşən çadrasının ucu ilə silib yanında donub qalmış uşaqlarına üz tutub dedi:"Balalarım, yaxın gəlin dədənizin əllərindən öpün."

Uşaqlar yanıma gəldilər, başlarına sığal çəkib onları oxşadım, həsrətdolu baxışlarımla öz nəvələrimə baxdım və əyilib bir-bir qucağlayıb öpdüm.Təbrizimin uşaqlığının qoxusunu onlardan aldım,şəhid övladımın baxışlarını onun balalarının gözlərində aradım.Bu an Tomris mənə dedi:-Bu böyük oğlumun adı Azərdir, Abu birinin adı Baydır." Lap kiçik uşağı yenidən qucağına götürüb fəxrlə üzünə baxaraq dedi:"Bu da Candır". Əllərimi uzadım iki yaşlı körpəni qucağıma alaraq gəlinə üz tutub dedim: "Hə,sənin də adın Tomrisdir,eləmi?"

Tomris dedi:

- Hə, atacan, uşaqların da, mənim də adımı Təbriz qoyub. Mənim əvvəlki adım Zəhra idi. Ata, Təbrizin ölüm xəbərini eşidəndə aylarla özümə gələ bilmədim, xəstələnib yatağa düşdüm.

Gəlin sözünə ara verərək bir qədər duruxdu və : " İki il sonra valideynlərimin təkidi ilə istəmədən ailə qurdum. Amma həyat yoldaşıma Təbrizdən çox danışdım. "Uşaqlarımın və mənim adımı Təbrizin əziz xatirəsi üçün ömürlük yaşadacağımı" dedim. O anlayışla qəbul etdi, özü də çox bəyənmişdi. Həm də uşaqların adlarını çağıranda ruhum Təbrizdə canlanır, sanki Təbirzin yanımda olmasını hiss edirəm."

Birdən toxdayıb qolumdan tutaraq dedi:" Atacan, gedək bizə sizi həyat yoldaşımla tanış edim, o da sevinər. Nə olar,gedək bizə çox xahiş edirəm."

Gəlinin sözünü yerə salmadım.Bazardan çıxmamış bəzi şeylər də aldım. Nəvələrimlə birlikdə evlərinə getdik, həyat yoldaşı Oqtay ilə tanış oldum. Süfrə arxasında xeyli söhbət etdik.Ermənilərin xalqımızın başına gətirdikləri müsibətləri xatırladıq.Yeməkdən sonra çay süfrəsi açan Tomrisə qıyqacı baxaraq oğlumun zövqünə bir anlıq tamaşa etdim.Ürəyimdə: "Gözəl qadındır,əsl Azərbaycan qadınına xas gözəllik varmış bu qızda"-dedim. Və dilimi saxlamadan yarı zarafat,yarı kədərli halda Tomrisə üz tutub dedim:

- "Ay bala,indi anladım ki, 7 il bundan qabaq Zəngana gələndə o günü səhərdən, günortaya qədər Təbriz nəyə görə məni gözlətmişdi və Bakıya qayıdandan sonra dalbadal bir neçə il qısa səfərlər etmişdi. Cəbhəyə getməzdən öncə anası da,mən də onun üçün ev gedib nişanlamaq istəyirdik,razı olmurdu."Axı nəvə istəyirik,ay oğul!"-deyəndə o gülümsünərək bizə belə söyləyirdi ki,"heç darıxmayın,cəbhədən qələbə ilə qayıdandan sonra gəlin də olacaq, nəvələr də görəcəksiniz,özü də bir yox üçünü." Biz də elə bilirdik ki,zarafat edir rəhmətlik. Heç ağlıma da gəlməzdi ki,doğru deyirmiş..."

Mən danışdıqca Tomrisin gözləri yol çəkmişdi.Birdən üzümə diqqətlə baxıb kədərlə gülümsədi...

Onlardan ayrılanda məktubu cibimdən çıxardıb Tomrisə verib: -"Artıq bu ünvansız məktub öz ünvanını tapdı. Buyur, bu məktub sənə çatacaq qızım, amma icazə ver şəkil məndə qalsın.Bakıya yolunuz düşsə bizi unutmayın"-deyib ayrıldım.Yolboyu qəhərdən boğulurdum.Sanki sudan çıxan balıq kimi ürəyim çırpınırdı.Təbrizimin yadigar balalarından ayrılmağım yenidən Təbrizi itirməyimə bərabər idi.Fikirləşirdim ki,Təbrizimin anasına bu olanları necə danışıb hər şeyi başa salacağam. Onsuzda yazıq qadın Təbrizin şəhidliyə qovuşmasından sonra o da yataq xəstəsi olub.Və mənim ailəmi iki yol ayrıcında qoyan qismət Vətənim Azərbaycanımın taleyi kimi iki yerə bölünmüşdür-Şimali Azərbaycanda Təbrizimin məzarı,Cənubi Azərbaycanda onun yadigar üç oğul övladı.Bu ağrılı fikirlərlə sərhəd gömrük məntəqəsinə yetişdim.Maşından düşüb montəqəyə daxil oldum,rəsmi sənəd yoxlamasından sonra piyada sərhəd körpüsünü keçib Azərbaycan Respublikasının gömrük-nəzarət məntəqəsinə daxil oldum.Pasportumu təqdim edib yoxlamadan keçən məqamda əməkdaşlardan biri məntəqəyə daxil olaraq öz həmkarına "Ay uşaqlar,Qarabağımız tamam azad olundu,bayrağımız Xankəndiyə sancıldı"deyib böyük sevinclə yanındakı həmkarlardan biri ilə qucaqlaşıb öpüşdü.Bu xəbər məni sanki içimdə qaynayan dərdimə sərin su səpdi. Daha dözə bilmədim,sevincimdən uşaq kimi ağlayırdım. Artıq bu sevinc mənim kimi şəhid vermiş,yurd-yuvasından qaçqın düşmüş soydaşlarımın dərdlərinə məlhəm idi...Təbrizim kimi bütün şəhidlərimizin qanı yerdə qalmamışdı,qisas alınmışdı...